

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 235 (23.397)

13 dekabr 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 16 il keçir. Tarix dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Ulu öndər Heydər Əliyevin də ömür yolu, əslində, Azərbaycanın bir qərinəlik tarixidir. O tarix ki, uzun illər boyu Azərbaycan mühitinin, Azərbaycan həyatının ayrılmaz parçası olub. Onun yazdığı tarix qurtuluş, inkişaf, milli tərəqqi salnaməsinə çevrilib. Heydər Əliyev milli dövlətçiliyimizin banisi, müstəqilliyimizin rəmzidir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəliblər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub.

Azərbaycanın Dövlət Himni səslənib.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.



## "Naxçıvan Lift Xidməti" publik hüquqi şəxsin yaradılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq muxtar respublikada lift təsərrüfatı xidmətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Şəhər Lift Təmiri və İstismarı İdarəsinin əsasında "Naxçıvan Lift Xidməti" publik hüquqi şəxsi yaradılsın.
2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini və ştat strukturunu təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 12 dekabr 2019-cu il*

# Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsi dərin ehtiramla yad edilmişdir





Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstəsi qoymuş, xalqımızın böyük oğlunun xatirəsinə ehtiramını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, şirkət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin kollektivləri, hərbi hissələrin, ictimaiyyətin nümayəndələri ulu öndərin abidəsi önünə gələrək əziz xatirəsini yad etmişlər.

Azərbaycanın müstəqil və inkişaf etmiş dövlət kimi regionda söz sahibi olması görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. Dahi rəhbərin şərəfli ömür yolu Vətənə xidmət nümunəsi, qürur və fəxarət rəmzidir. Ulu öndərin ***"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına***



***xidmət olub"*** fikirləri Onun bütün həyat amalının ifadəsidir.

Ümummilli lider elə bir fenomen şəxsiyyətdir ki, zaman keçdikcə, illər ötdükcə onun böyüklüyünü daha dərindən dərk edirik. Xalqımızın böyük oğlu Azərbaycanın uğurlu gələcəyinə işıq salan mükəmməl inkişaf konsepsiyası hazırlamış və mənalı ömrünü bu ideyaların həyata keçirilməsinə həsr etmişdir. O, hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, onu zamanın ağır sınaqlarından məharətlə çıxarmışdır.

Dahi liderin ölkəmizə rəhbərliyinin 1969-1982-ci illəri Azərbaycan tarixinə iqtisadi və milli-mədəni yüksəliş dövrü kimi daxil olmuşdur. Həmin dövrdə respublika həyatının bütün sahələrində kompleks tədbirlər həyata keçirilmiş, Azərbaycan ittifaq respublikaları içərisində inkişaf tempinə görə öncül mövqeyə yüksəlmiş, tarixi-mədəni irsimiz, milli dəyərlərimiz qorunub yaşadılmışdır. Məhz ulu öndərin Azərbaycana rəhbərlik etdiyi o illərdə dövlət müstəqilliyimizin möhkəm təməli qoyulmuşdur.

Heydər Əliyev şəxsiyyəti və dühası müstəqil Azərbaycanın uğurlu inkişafının təməlində dayanan əsas amildir. Ümummilli liderimizin Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi şərəfli xilaskarlıq və quruculuq missiyasına həsr edilmişdir. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşayan və fəaliyyət göstərən ulu öndər müstəqilliyimizin əsasını təşkil edən mühüm tarixi qərarlar qəbul etmiş, muxtar respublikanın erməni təcavüzündən xilas edilməsi, böhranlı vəziyyətdən çıxarılması üçün ardıcıl tədbirlər görmüşdür. Üçrəngli bayrağımızın ilk dəfə 1990-cı il noyabrın 17-də ulu öndərin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində qaldırılması, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözlərinin çıxarılması, SSRİ-nin qorunub saxlanması ilə bağlı keçirilən referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsi, aqrar islahatların keçirilməsi, Azərbaycanda ilk milli ordu quruculuğuna Naxçıvan Muxtar Respublikasından başlanılması müstəqil dövlətçilik yolunda atılan uğurlu addımlar idi.

1993-cü ildə xalqımız ümummilli liderinə yenidən üz tutdu, nicatını onun hakimiyyətə qayıdışında gördü. Görkəmli dövlət xadimi Azərbaycanı hərc-mərclikdən, müstəqilliyini itirmək təhlükəsindən xilas edərək ictimai-siyasi sabitlik və hərtərəfli inkişaf yoluna çıxardı. 1993-2003-cü illərdə Vətənə və xalqına xidmət nümunəsi göstərən ümummilli liderimiz doğma Azərbaycanın davamlı inkişafını təmin etdi, onu tərəqqiyə qovuşduraraq bütün dünyada tanıtdı.

Bu gün ulu öndərin siyasi kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki,

*Ardı 2-ci səhifədə*

Azərbaycan öz tarixinin yeni, şanlı səhifələrini yazır. Heydər Əliyev yolu Azərbaycanı daha böyük zəfərlərə qovuşdurur. Xalqımız ümummilli liderimizin şah əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, ulu öndərə dərin məhəbbətlərini onun ideyaları ətrafında sıx birləşməklə nümayiş etdirir.

Bu yolun davam etdirilməsi Naxçıvan Muxtar Respublikasını da yeni inkişaf mərhələsinə qovuşdurmuşdur. Muxtar respublikada quruculuq işləri geniş vüsət almış, iqtisadiyyatın dinamik inkişafı, sosial proqramların icrası, enerji, ərzaq və müdafiə təhlükəsizliyi təmin edilmişdir. Qazanılan bütün bu uğurlar dahi şəxsiyyətin ideya və amallarının dönmədən həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dediyi kimi: ***“Müstəqil Azərbaycan cəmiyyətində inkişafın bir hərəkətverici qüvvəsi var: bu – Heydər Əliyev ideyalarıdır. Heydər Əliyev yoluna sadiq qalan xalqımız özünün milli liderinin ideyalarını yaşatdıqca, onun zəngin xəzinəsindən bəhrələndikcə, daim irəliyə gedəcək, yaşayacaq və rifaha qovuşacaqdır”.***

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Ulu öndərin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında böyük hörmətlə anılmışdır

## *Şərur rayonu*



XX əsr Azərbaycan tarixinin daha yaddaqalan, önəmli və əlamətdar bir mərhələsi var: altmışıncı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi bir zaman! Bu tarixi salnamənin hər kəsdən daha fəal iştirakçısı da, yaradıcısı da dahi şəxsiyyət – daim xalqına arxalanan və bu xalqa etibarlı arxa, dayaq olan xilaskar, qurucu, yaradıcı insan, Azərbaycan kimi dünyanın maraqlarını özünə cəlb edən bir ölkənin məsuliyyətini uzun illər çiyinlərində daşıyan, onu bir dövlət, bir millət kimi tarixin sınaqlarından uğurla çıxaran görkəmli dövlət xadimi Heydər Əliyevdir. Bütün mənalı həyat və fəaliyyətini yeni Azərbaycanın qurulmasına, yaşadılmasına sərf edən, tarixə dünyanın ən böyük siyasi lideri kimi düşən ulu öndər ölkəmizə bir qərinəlik rəhbərliyi dövründə elə böyük işlərə imza atıb ki, bu gün onları göz önünə gətirəndə belə bu dahilik qarşısında hamımız ehtiramla baş əyirik. Ümummilli liderin Azərbaycana rəhbərliyi dövründə respublikamızın bütün bölgələrində olduğu kimi, Şərur rayonunda da genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilib, onlarla məktəb, xəstəxana, mədəniyyət müəssisəsi üçün yeni bina tikilib istifadəyə verilib, yollar, körpülər salınıb, meliorasiya-irriqasiya işləri görülüb. Ümummilli liderin bilavasitə rəhbərliyi ilə Şərurda yaradılan Arpaçay Su Qovşağı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan yaradıb. Ulu öndərin həyata keçirdiyi çoxşaxəli, ardıcıl tədbirlərdən muxtar respublikanın bu böyük bölgəsinə də xeyli pay düşüb. Yeni sənaye müəssisələrinin işə salınması, aqrar sahədə həyata keçirilən islahatlar rayonda iqtisadiyyatın, buna müvafiq olaraq əhalinin maddi rifah halının xeyli yüksəlməsinə imkan yaradıb.

Muxtar respublika Ali Məclisi Sədrinin bu siyasətə sadiqliyinin nəticəsidir ki, son illər rayonda 50-dən artıq yaşayış məntəqəsində geniş quruculuq tədbirləri həyata keçirilib. Təkcə bu il 6 yaşayış məntəqəsində yeni sosial obyektlər istifadəyə verilib, bütün infrastrukturlar təzələnib, Şərur şəhərində iki ictimai yaşayış binası əsaslı şəkildə yenidən qurulub. Muğancıq Mehrab və Məmmədsabir kəndlərində aparılan quruculuq tədbirləri isə yekunlaşmaq üzrədir.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Şərur Sənaye Məhəlləsinin tikintisinə başlanması rayonda sənaye potensialının daha da genişləndirilməsinə təkan verəcəkdir.

Ümumiyyətlə, Şərur ulu öndər Heydər Əliyev siyasətinə sadiqliyin nəticəsində inkişafın yenilələşən mərhələsini yaşayır.

Dekabrın 12-də ölkəmizin hər yerində olduğu kimi, Şərur rayon sakinləri də ulu öndərin rayon mərkəzindəki əzəmətli abidəsi önünə gələrək Onun əziz xatirəsini yad edib, hörmət və ehtiramlarını bildiriblər.

* * *

## *Ordubad rayonu*



Görkəmli dövlət xadimi Heydər Əliyev xalqımızı can atdığı müstəqillik idealına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Ümummilli liderimizin 1993-cü ilin iyun ayında Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışı ilə xalqımızın itirilmiş inamı özünə qaytarılmış, ictimai-siyasi sabitliyin əsası qoyulmuşdur.

Ulu öndər tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi strategiya, quruculuq xətti bu gün Naxçıvan Muxtar Respublikasında da Ali Məclisin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə layiqincə davam etdirilir. Bunu Ordubad rayonunun timsalında da aydın görmək olar. Belə ki, bu rayon son 24 ildə neçə onilliklərə bərabər inkişaf yolu keçərək müasirliyə qovuşmuş, həyatın bütün sahələrində böyük uğurlar qazanılmışdır. Əldə olunan uğurların təməlində isə ulu öndər Heydər Əliyev yoluna böyük inam, bu dahi şəxsiyyətin ideyalarına sədaqət dayanır.

Təkcə yola salmaqda olduğumuz 2019-cu ilə nəzər yetirdikdə nə qədər böyük uğurlar qazanıldığını görə bilərik. Bu il yanvar ayında rayonun ən iri kənd yaşayış məntəqəsi olan Dəstə kəndində kompleks quruculuq işləri görülmüşdür. May ayında isə Ordubad şəhərində rayon İcra Hakimiyyətinin və şəhər İcra Nümayəndəliyinin binaları əsaslı yenidənqurma və təmirdən sonra istifadəyə verilmişdir. Azadkənddə yeni su təchizatı sisteminin qurulması layihəsinin icrası başa çatdırılmış, Dəstəbaşı-Vənənd avtomobil yolu əsaslı təmir edilmiş, dekabr ayında isə Dırnıs kəndində Allahşükür məscidi istifadəyə verilmişdir. Bundan başqa, Ordubad şəhərində içməli su və kanalizasiya xətlərinin, 28 mənzilli yaşayış binasının inşası, Culfa-Ordubad magistral avtomobil yolunun yenidən qurulması, Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir.

Millətinin gələcəyi üçün gördüyü işlərə, insanların rifahı naminə misilsiz xidmətlərinə, bugünkü əmin-amanlığa, firavanlığa görə xalqımızın böyük oğlu Heydər Əliyev ölkəmizin hər yerində olduğu kimi, “Azərbaycanın incisi” adlandırdığı Ordubadda da rayon sakinləri tərəfindən həmişə minnətdarlıqla xatırlanır. Ordubadlılar inanırlar ki, ulu öndər Heydər Əliyev siyasəti bundan sonra da yaşayacaq.

Dekabrın 12-də Ordubad rayonunda da dahi rəhbərin, əbədiyaşar liderin anım mərasimi keçirilib. Ordubadlılar şəhərin mərkəzindəki ulu öndər Heydər Əliyevin büstü önünə gələrək görkəmli dövlət xadiminə sevgi və ehtiramlarını bildirib, büstün önünə gül dəstələri qoyublar.

## *Babək rayonu*

*Ümummilli liderin hələ Sovetlər Birliyi dönəmində cəsarət və qətiyyətlə həyata keçirdiyi tədbirlərdən biri də Babək rayonunun yaradılması ilə bağlı oldu. 1978-ci ildə mərkəzin iradəsinin əksinə olaraq yeni bir rayon təşkil edib, ona xalq qəhrəmanının adını vermək yalnız Heydər Əliyev dühasına, şəxsiyyətinə nəsib ola bilərdi.*



Bu gün 75 mindən çox əhalisi olan Babək rayonu 35 kənd və 1 qəsəbədən ibarətdir. Ötən dövr ərzində dahi şəxsiyyətin müəyyən etdiyi sabitlik və inkişaf yoluna göstərilən dərin sədaqətin nəticəsində rayonun yaşayış məntəqələri başdan-başa yenidən qurulub, infrastruktur yenilənib.

Ulu öndər Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsi sayəsində ötən illərlə müqayisədə Babək rayonunda sənaye məhsulunun həcmində bir neçə dəfə artım olub. Rayon ərazisində iri daş məhsulları, kərpic, beton məmulatları və mineral su istehsalı müəssisələri ilə yanaşı, kiçik sahibkarlıq subyektləri də yaradılıb. Nehrəmdə gəc istehsalı, digər kəndlərdəki emal sahələrini və Cəhri, Sirab, Hacıvardakı un dəyirmanlarını nəzərə alsaq, burada çox sayda babəklinin işlə təmin olunduğunu görmək olar.

Babək rayonunda aparılan abadlıq-quruculuq işləri hər il davamlı xarakter alır. 2019-cu ildə isə rayonda Ali Məclis Sədrinin iştirakı ilə müasir ağacyetişdirmə sahəsi – “İqlim otağı” fəaliyyətə başlayıb, Elektrik Şəbəkəsi üçün tikilən inzibati bina istifadəyə verilib. Bununla yanaşı, cari ilin payız aylarında tarixi yaşayış məntəqəsi olan qədim Kültəpə müasirliyə qovuşub. Quruculuq ərməğanının növbəti ünvanı isə kiçik yaşayış məntəqəsi Gülşənabad olub. Rayonda Baytarlıq İdarəsinin və Süni Mayalanma Mərkəzinin tikintisi də uğurla davam etdirilib. İndi fəxrlə demək olar ki, Babək bu gün muxtar respublikanın inkişaf etmiş rayonları sırasındadır. Bütün bunlar isə Heydər Əliyev ideyalarının uğurlu davamının əməli bəhrələridir.

Dekabrın 12-də Babək rayonunda dahi şəxsiyyətin anım günü ilə əlaqədar olaraq keçirilən mərasimdə rayon sakinləri xalqımızın böyük oğlunun əzəmətlə ucalan abidəsini ziyarət edib, xatirəsini dərin ehtiramla anıblar.

* * *

## *Culfa rayonu*



*Culfa rayonunda da ümummilli liderin xatirəsi böyük ehtiramla yad olunub. İdarə, müəssisə, təşkilat kollektivləri, ictimaiyyət nümayəndələri, şəhər sakinləri ulu öndərin Culfa şəhərindəki büstünü ziyarət edib, tər gül dəstələri qoyublar.*

Görkəmli dövlət xadiminin müdrikliklə davam etdirilən quruculuq siyasətinin bu rayonda da xeyli bəhrələri var. Məhz bu bəhrələr hesabına Culfa da müasir rayona çevrilib. Bir-birindən yaraşıqlı inzibati və ictimai yaşayış binaları, parklar, abad prospekt və küçələr, həm şəhərdaxili, həm də rayonun kəndləri arasında salınmış asfalt yollar sakinlərin istifadəsinə verilib. Əhalisinin 70 faizdən çoxu kəndlərdə yaşayan muxtar respublikamızın digər bölgələrində olduğu kimi, Culfa rayonunda da mühüm sahələrdən olan aqrar bölmənin inkişafı diqqət mərkəzində saxlanılıb, daxili bazarın keyfiyyətli yerli kənd təsərrüfatı məhsulları ilə təmin olunmasına əlverişli şərait yaradılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, əhalinin məşğulluğu təmin olunub, maddi rifah halı daha da yaxşılaşıb. Culfada da son illərdə əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, ulu öndərimiz tərəfindən əsası qoyulan işlər muxtar respublikamızda uğurla davam etdirilir.

Cari il də culfalılar üçün quruculuq tədbirləri ilə yaddaqalan olub. Rayon mərkəzində, kənd yaşayış məntəqələrində kompleks quruculuq tədbirlərinin aparılması davamlı xarakter alıb. Hazırda rayon mərkəzindəki Heydər Əliyev prospekti yenidən qurulur, Rabitə Evi, Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin inzibati binası, “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımalar İdarəsinin Vaqon Təmiri sexi, Təhsil şöbəsi üçün binalar inşa olunur, kənddaxili yollara qara örtük salınır, Ərəfsə kəndində Daş körpü tarix və mədəniyyət abidəsi bərpa olunub, Darıdağ arsenli su müalicə və istirahət kompleksində tikinti işləri davam edir.

Təbii ki, görülən işlər Culfa rayonunun sakinləri tərəfindən ümummilli liderin parlaq ideyalarının davamı kimi minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi daim ehtiramla yad edilir.

*Ardı 3-cü səhifədə*

## Kəngərli rayonu



*Dekabrın 12-də Kəngərli rayon sakinləri ümummilli liderin rayon mərkəzindəki abidəsi önünə tər gül dəstələri qoyub, müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad ediblər. İdarə, müəssisə və təşkilatların, məktəblərin kollektivləri, ictimaiyyətin nümayəndələri ulu öndərin əziz xatirəsinə sonsuz məhəbbətlərini ifadə ediblər.*

Heydər Əliyev ideyalarının muxtar respublikamızda uğurla həyata keçirilməsi bütün bölgələrimiz kimi, Kəngərli rayonunu da gözəlliklər diyarına çevirib. Bu il yaradılmasının 15 illiyi tamam olan rayonda ötən illər ərzində mühüm infrastruktur layihələri həyata keçirilib. Rayonda yeni istehsal müəssisələrinin işə salınması ilə geniş iqtisadi potensialın əsası qoyulub, əhalinin məşğulluğunun və güzəranının yaxşılaşdırılması üçün etibarlı təminat yaradılıb.

Bəli, bu gün Kəngərli rayonu hərtərəfli inkişaf və tərəqqiyə qovuşub. Əsaslı və kompleks şəkildə aparılan tikinti-quruculuq tədbirlərinin nəticəsidir ki, rayon mərkəzi sayılan Qıvraq qəsəbəsi tamamilə öz simasını dəyişib.

Rayonun davamlı sosial-iqtisadi inkişafı, o cümlədən tikinti-quruculuq tədbirləri cari ildə də davam etdirilib. 2019-cu ildə Qabıllı kəndində yeni Günəş Elektrik Stansiyası fəaliyyətə başlayıb, Qıvraq qəsəbəsində bir yaşayış binasının tikintisi başa çatdırılıb, hərbi hissədə isə zabit-gizir ailələrinin ixtiyarına yeni yaşayış binası verilib. Hazırda rayonda quruculuq tədbirləri davam etdirilir.

Yaradılmış münbit şərait aqrar bölgə olan Kəngərlidə kənd təsərrüfatının da sürətli inkişafına təkan verib. Rayonda əkin sahələrinin əhatəsi genişləndirilir, yeni suvarma sistemləri yaradılır, məhsuldarlıq ildən-ilə artır.

Bəli, günü-gündən gözəlləşən və müasirliyə qovuşan Kəngərli rayonu hazırda özünün yüksəliş və intibah dövrünü yaşayır. Bu inkişaf, müasirlik və yeniləşmə Heydər Əliyev ideyalarının uğurla davam etdirilməsinin nəticələridir.

## Şahbuz rayonu



Şahbuz rayonunun sakinləri, idarə, müəssisə və təşkilat kollektivləri, hərbi hissə, həmçinin ictimaiyyət nümayəndələri hər il olduğu kimi, bu il də görkəmli dövlət xadimi Heydər Əliyevin rayon İcra Hakimiyyətinin binası qarşısındakı büstü önünə təzə-tər qərənfillər düzərək onun əziz xatirəsini hörmətlə yad ediblər.

Ulu öndərin diqqət və qayğısı ilə regionların inkişafına göstərilən dəstək Şahbuzun da tərəqqisinə yol açdı. Ötən illər ərzində rayonda tikinti-quruculuq siyasəti dövlət qayğısı ilə davamlı şəkildə həyata keçirilib.

Müasirliyə qovuşan rayonda bu il də tikinti-quruculuq işləri geniş vüsət alıb. 2019-cu ilin ötən dövrünə nəzər salanda yenə də ulu öndər Heydər Əliyev siyasətinin bəhrələrini aydın görmək olur.

Muxtariyyətimizin 95 illik yubileyi ilində rayonda yeni Aviakassa binası, Badamlı qəsəbəsində avtomobil yolu və xidmət mərkəzi istifadəyə verilib. Şahbuz Rayon Mədəniyyət Sarayı, Dövlət Arxivi üçün nümunəvi şərait yaradılıb. Quruculuq işləri rayonun Türkeş kəndini də yeni inkişaf mərhələsinə qovuşdurub.

Rayonun Sələsüz, Yuxarı Qışlaq, Aşağı Qışlaq, Mahmudoba və Kolanı kəndlərində mərasim evi inşa olunub. Kükü, Badamlı kəndlərində isə mərasim evlərinin tikintisi davam etdirilir. Bütün bunlar muxtar respublikada Heydər Əliyev ideyalarının sədaqətlə və yaradıcı şəkildə davam etdirilməsinin nəticəsidir. Bu uğurlar həm də onu sübut edir ki, ümummilli liderin ölməz xatirəsi və böyük əməlləri daim yaşayacaq.

* * *

## Sədərək rayonu

*Ümummilli lider Heydər Əliyevin anım günü Sədərək rayonunda da dahi şəxsiyyətin Heydərabad qəsəbəsindəki büstü ziyarət edilmiş, önünə tər güllər düzülmüşdür.*

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan ümummilli lider böyük siyasət üçün yaranan nadir şəxsiyyət idi. Ölkəmiz bu gün ulu öndərin uğurlu siyasətinin davam etdirilməsi sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar ümummilli lider Heydər Əliyev yolunun layiqincə davam etdirildiyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının sərhəd bölgəsi olan Sədərək rayonunun yaradılması, inkişafı və tərəqqisi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sədərək rayon kimi muxtar respublikanın inzibati ərazi bölgüsünə 1990-cı il avqustun 28-də daxil edilmişdir. Rayon mərkəzi olan



Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur. Ötən əsrin 90-cı illərində Sədərək mənfur ermənilər tərəfindən mütəmadi hücumlara məruz qalmışdır. Dahi şəxsiyyətin böyük nüfuzu, uzaqgörən siyasəti nəticəsində düşmən hücumlarının qarşısı qətiyyətlə alınmış, rayonun müdafiəsi üçün mühüm addımlar atılmışdır. Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə rayonun sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Rayon mərkəzi olan Heydərabad qəsəbəsinin siması büsbütün dəyişmişdir. Qəsəbədə 7 mərtəbəli 48 mənzilli yaşayış binası tikilib istifadəyə verilmişdir.

Təbii ki, sədərəklilər bu gün ümummilli liderin bu rayonun yaradılması, müdafiə və inkişaf etdirilməsi sahəsində xidmətlərini dərin hörmət və ehtiramla yad edirlər.

**Xəbərlər şöbəsi**

## Dahi şəxsiyyətin adının və ideyalarının yaşadıldığı ünvan



*Bu gün ölkəmizdə ulu öndərimiz Heydər Əliyevin adını daşıyan ünvanlar hər bir azərbaycanlı üçün ən müqəddəs yerlərdir. Bütün mənalı həyatı və fəaliyyəti boyu canından artıq sevdiyi Azərbaycanın çiçəklənməsi, güclü dövlətə çevrilməsi üçün çalışan və ideyalarını gerçəkləşdirən görkəmli dövlət xadiminin parlaq obrazı hər birimiz üçün daimi və əbədidir. Doğulub boya-başa çatdığı, ölkəmiz üçün taleyüklü qərarlar qəbul etdiyi Naxçıvanda da dahi şəxsiyyətin xatirəsinin əbədiləşdirildiyi ünvanlar az deyil. Onlardan biri də Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdir.*

2014-cü il sentyabr ayının 2-də Naxçıvan şəhərinin Babək məhəlləsində yeni məktəb binasının istifadəyə verilməsi təkcə təhsil ictimaiyyətinin deyil, bütün muxtar respublika sakinlərinin sevincinə səbəb oldu. Açılış mərasimində ulu öndər Heydər Əliyevin təhsil sahəsində müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev də iştirak edirdi. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, ümummilli liderimizin təşəbbüsü ilə tikilən və həm də onun adına ucaldılan bir abidənin açılışı idi. Açılış mərasimində iştirak edən dövlət başçısı deyib: ***"Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun".***

Ölkə başçısının bu sözlərini pedaqoji kollektiv özünün fəaliyyət proqramına çevirib. Bu səbəbdəndir ki, hər tədris ili yüksək nəticələrlə başa çatır. İlk ən böyük nəticə isə məktəbin 2007-2008-ci tədris ilinin yekununa görə ölkəmizdə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olmasıdır. Heydər Əliyev adına tam orta məktəb muxtar respublikada digər təhsil ocaqları üçün bir nümunə səviyyəsinə çatması, tədrisin və təlim-tərbiyə prosesinin təşkilində burada əldə olunmuş təcrübənin geniş şəkildə yayılması ciddi əsaslar yaratdığına görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında" 2014-cü il 21 avqust tarixli Sərəncam imzalayıb. Həmin sərəncama əsasən oktyabr ayının 22-də məktəbin 10 illiyi təntənəli şəkildə qeyd edilib.

Dörd mərtəbədən ibarət olan məktəbdə 60 sinif komplekti, 5 elektron lövhəli sinif, 3 kompüter otağı, kimya, biologiya və fizika laboratoriyaları, kitabxana, hərbi kabinə, 2 şahmat sinfi və müəllimlər otaqları, emalatxana və idman zalı vardır. Hazırda 1279 şagirdin təhsil aldığı məktəbdə 94 müəllim çalışır.

Sinif otaqları və fənn kabinələrində yaradılan şərait dərslərdə əyaniliyin təmin olunmasına imkan verir. Bütün bunlar, ilk növbədə, şagirdlərin yüksək səviyyədə təhsil almasına, Azərbaycançılıq ideyalarına sadiq, müstəqil və yaradıcı düşünən gənc kimi yetişməsinə geniş imkanlar açır. Məktəbin kompüter otaqlarında 57 kompüter dəsti quraşdırılıb, internetə çıxış təmin olunub. Həmçinin elektron lövhəli siniflərdə və laboratoriyalarda da müasir tədris imkanları yaradılıb, elektron dərsliklər və əyani vəsaitlərlə təminat yüksək səviyyədə təşkil olunub. Tədris ocağının ki-





tabxana fondunda 18 minə qədər dərslik və bədii ədəbiyyat müəllim və şagirdlərin istifadəsinə verilib.

Məktəbin direktoru Elmira Həsənova qeyd etdi ki, kollektiv bu təhsil ocağında müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər, müstəqilliyimizin keşiyində durmağı vətəndaşlıq borcuna çevirən gənclər yetişdirilməsi məqsədilə bütün imkanlarını səfərbər edir. Müəllimlər unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına, Onun ideyalarına layiq olmalıdır. 15 il ərzində məktəbi yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, "Qızıl" və "Gümüş" medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldurlar. Məktəbin şagirdlərindən birinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınıb.

Təhsil ocağının qazandığı uğurlar belə deməyə əsas verir ki, pedaqoji kollektiv məsuliyyətini dərindən dərk edir, işini dahi rəhbərin adına layiq səviyyədə qurmağa səy göstərir. Elə bu səbəbdəndir ki, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin statistik məlumatlarında Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında layiqli yerini qorumaqdadır.

Məzunlar 2018-2019-cu tədris ilində də məktəbin tarixinə yeni uğurlar yazıblar. Təhsil ocağını bitirmiş 63 məzundan 4-ü fərqlənmə attestatına, 2-si "Qızıl", 2-si isə "Gümüş" medala layiq görülüb. Məzunların 56-sı ali, 2-si orta ixtisas məktəblərinə qəbul olunub. İmtahanlarda 15 abituriyent 500-700 arası bal toplayıb. Tələbə adını qazananlardan biri Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülüb.

2011-2019-cu illər ərzində 15 şagird ümumrespublika olimpiadalarında qalib olub, Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanlarını alıb. Ölkə üzrə şahmat çempionatında Nəsrin Babayeva mükafata layiq görülüb. Tayfur Əliyevin uğurlarını isə bütün naxçıvanlılar bilirlər.

Artıq 2019-2020-ci tədris ilinin I yarımili başa çatmaqdadır. Heydər Əliyev adına tam orta məktəbin kollektivi qarşıdan gələn qəbul imtahanlarında yeni uğurlar qazanmaq üçün bütün qüvvəsini səfərbər edib. Bu tədris ili məzun olacaq 60 məktəbli dərs, dərnək və əlavə məşğələlərdə on bir il elmin sirlərini öyrəndikləri müəllimlərindən son bilgilərini alırlar. Müəllimlər isə çəkdikləri zəhmətin yenə də hədər getməyəcəyinə inanırlar.

Yeri gəlmişkən onu da qeyd edək ki, qazanılan uğurlarda başlıca sima olan müəllimlərin əməyi layiqincə qiymətləndirilib. Məktəbin 5 müəllimi Azərbaycan Respublikasının, 5 müəllimi isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllim"i fəxri adlarına layiq görülüb, 4 müəllimi "Tərəqqi" medalı ilə təltif edilib, 1 müəllim isə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub.

*Ulu öndərimiz Heydər Əliyev deyirdi:* ***"Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".*** *Heydər Əliyev adına tam orta məktəbin kollektivi görkəmli dövlət xadiminin bu tövsiyəsini əldə rəhbər tutaraq qazandığı nailiyyətləri son hədd hesab etmir. Yaradılan şərait, göstərilən diqqət və qayğı müqabilində rekord uğurlara nail olmaq əzmi ilə çalışır. Məktəbin uğuru isə cəmiyyətin uğurudur.*

**Muxtar MƏMMƏDOV**

*Qədim və müasir dövr həm də ona görə bir-birinə bağlıdır ki, informasiya almaq və yaymaq zərurəti hər iki dövrdə mövcud olub və indi bu proses yeni imkanlar hesabına daha da güclənərək inkişaf edir. Bunun əsas səbəblərindən biri insanların daim informasiya axtarışında olmalarıdır. Onlar mövcud informasiyanı əvvəlcə axtarır, toplayır, hazırlayır sonra yayırlar. İnformasiyanın izah və şərhi insanları bu və ya digər formada bilgiləndirir. Bəzən verilən informasiya kontekstdən kənarlaşdırılır, başqa məqsədlərə xidmət edir ki, bu da informasiyanın təhlükəsizlik anlayışını ortaya çıxarır.*

## Onlayn media və sosial şəbəkələr ictimai rəyi düzgün formalaşdırmağa xidmət etməlidir




İnformasiya-kommunikasiya texnologiyalarının inkişaf etdiyi müasir dövrdə insan beyni gündə yüzlərlə informasiyanı qəbul edir. Bu gün sürətlə inkişaf edən internet və ya onlayn media Azərbaycanın media məkanında əsas informasiya daşıyıcısı, ötürücüsü rolunu oynayır. Müasir cəmiyyətimizdə durmadan artan tələbat informasiya əldə etmək işində yeni medianın rolunu daha da artırıb. İnternet məkanında yaradılan informasiya agentliklərinin, xəbər portallarının, televiziyaların sayı günbəgün çoxalır. Bu gün insanlar bir-biri ilə əlaqə yaratmaq, fikirlərini cəmiyyətə çatdırmaq üçün müxtəlif üsullardan, o cümlədən “Facebook”, “Twitter”, “Instagram” kimi sosial şəbəkələrdən, internet vasitəsilə yaradılan bloqlardan istifadə edirlər. Bütün bunlara baxmayaraq, Azərbaycanda mövcud olan televiziya, radio və klassik yazılı mətbuat vasitələri də informasiyanın yayılma mənbələri kimi öz rollarını qoruyub saxlaya biliblər. Onlayn mediaya günü-gündən artan marağın əsas səbəblərindən biri də informasiyanın daha asan və əlçatan olması ilə əlaqəlidir. Bu gün onlayn media və sosial şəbəkələr istənilən sahədə ictimai rəyi yönləndirən əsas vasitəyə çevrilib. Ona görə də burada yayılan istənilən maraqlı xəbər dərhal cəmiyyətdə fəal müzakirələrə səbəb olur. Bu, onlayn mediada yayılan xəbərlərin reallığına əmin olmaq kimi çox vacib məsələni də ortaya qoyur.

Müasir medianın böyük bir hissəsini təşkil edən, cəmiyyətə güclü təsir göstərən onlayn media ictimai maraqdan çıxış etməlidir. Bu media növü azad olsa da, hadisələrə məsuliyyətlə yanaşmalıdır. Burada həm sosial, həm də hüquqi məsuliyyətdən söhbət gedir. Bunların hər ikisi informasiya təhlükəsizliyinin təmin olunması probleminin vacibliyini və aktuallığını şərtləndirir. Bu gün dünya dövlətlərinin əsas prioritet məsələlərindən biri olan informasiya təhlükəsizliyinin təmin edilməsi siyasi, iqtisadi, sosial, mədəni və digər sahələri əhatə edən 300-ə yaxın aktiv portal, xəbər saytı və internet informasiya resursunun fəaliyyət göstərdiyi ölkəmizdə də aktual və vacib məsələlərdən biridir. Bəzən dəqiqləşdirilməmiş, qərəzli, mənbəyi məlum olmayan informasiyalar ölkədə gedən proseslərin, konkret hadisələrin mahiyyətini təhrif edir, ictimaiyyəti çaşdırır və dövlətin informasiya təhlükəsizliyinin pozulmasına gətirib çıxarır. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikası Qanununun “Kütləvi informasiya azadlığından sui-istifadənin yolverilməzliyi” maddəsində göstərilir ki, *Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunan sirləri yaymaq, mövcud konstitusiyalı dövlət quruluşunu zorakılıqla devirmək, dövlətin bütövlüyünə qəsd etmək, müharibəni, zorakılığı və qəddarlığı, milli, irqi, sosial ədavəti, yaxud dözülməzliyi təbliğ etmək, mötəbər mənbə adı altında vətəndaşların şərəf və ləyaqətini alçaldan şayiələr, yalan və qərəzli yazılar çap etdirmək, böhtan atmaq, yaxud digər qanuna zidd əməllər törətmək məqsədilə kütləvi informasiya vasitələrindən istifadə olunmasına yol verilmir.*

Bu gün rəqiblərini üstələmək, oxucu qazanmaq və onu əldə saxlamaq üçün onlayn mediada da bu halların pozulduğunun şahidi oluruq. Bəzən xəbər əldə etmək üçün onlayn jurnalistika bloq və sosial şəbəkələrə müraciət edir. Onlayn medianın əsas vasitələrindən biri olan sosial şəbəkələr insanların ictimai münasibətlərini tənzimləyən bir vasitədir. “Hootsuite Global Digital 2019”un hesabatına əsasən bəlli olur ki, internet istifadəçiləri orta hesabla oyaq vaxtlarının üçdə birindən çoxunu – 6 saat 42 dəqiqəsini onlayn rejimdə olurlar, internetdə keçirilən vaxtın üçdə ikisi isə, yəni, təqribən, 4 saatı sosial şəbəkələrin payına düşür. Bu göstərici inkişaf etməkdə olan ölkələrdə daha yüksəkdir. Belə bir fakt həm də onu təsdiqləyir ki, müasir dünyamızda sosial şəbəkələr informasiya mərkəzlərinə çevrilir, həmçinin informasiyanın operativ mənbəyi olmaqla, öz auditoriyasını formalaşdırır. Müşahidələr göstərir ki, sosial şəbəkələrdə yayılan informasiyalar xəbər portallarının lentlərində özünə yer tapır. Bu da bəzi hallarda qeyri-səhih xəbərlərin yayılmasına səbəb olur. Sosial şəbəkələrdən xəbər qaynağı kimi faydalanan peşəkar jurnalistlərdən tələb olunur ki, hər hansı bir status ictimai maraq kəsb edirsə, jurnalistikanın etik qaydalarını gözləməklə ondan istifadə etmək olar.

Əsas məlumat mənbəyi hesab olunan internetin və mobil telefonların hər evə daxil olması nəticəsində onlayn media istifadəçilərinin sayı hər keçən gün artmaqdadır. Məlumat üçün bildirək ki, Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. Sosial şəbəkə istifadəçilərinin sayı isə 3 milyondan çoxdur. Bu göstəricilər ölkəmizdə internet azadlığının təmin edilməsi kimi xarakterizə olunur. Müasir və qloballaşan dünyada sosial şəbəkələr insanın virtual kimliyini formalaşdırıb. Bu, çox vaxt milli kimliklə üst-üstə düşmür, sosial media platformalarında adi ünsiyyətin və media fəaliyyətinin məğzi dəyişir. Hər şeydən sui-istifadə etməyə öyrəşmiş bəzi adamlar sosial mediadan başqalarına şər, böhtan atmaq, şantaj etmək, yalan məlumatlar yayıb ictimai rəyi çaşdırmaq məqsədilə istifadə edirlər. Cinayət Məcəlləsində bu qəbildən olan hərəkətlərə görə nəinki öz adı altında, saxta ad altında eyni hərəkəti edənlər də məsuliyyət daşıyırlar. İndi məqsəd belə halların qarşısının alınmasıdır. Bunun üçün maarifləndirmə işlərinin aparılmasının vacibliyi ön plana çəkilir. Ən azı, peşə etikasını, informasiya ilə iş prosesini, KİV-in hüquqi tənzimlənməsini, “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq tələblərini bilmək bu işlərin əsasında dayanır.

Noyabrın 30-da Naxçıvan şəhərində “Onlayn media və sosial şəbəkələr: yeni dövrün çağırışlarında jurnalist peşəkarlığı və cəmiyyətin mənafeləri” mövzusunda beynəlxalq konfrans keçirildi. Ümumdünya Mətbuat Şuraları Assosiasiyasının rəhbəri və əməkdaşlarının, Azərbaycan Mətbuat Şurasının sədri və üzvlərinin, tanınmış yerli media rəhbərləri və təmsilçilərinin, tələbə jurnalistlərin iştirak etdiyi konfransda bu məsələlər bir daha müzakirə olundu və qənaətə gəlindi ki, muxtar respublikamızda günün tələbləri səviyyəsində qurulan onlayn media, həm də sosial şəbəkələr üzərindən aparılan geniş təbliğat operativ, dəqiq və qərəzsiz informasiyaların yayılmasını təmin edir. İnformasiya axtarışında olan ölkə və dünya ictimaiyyəti Naxçıvan haqqında obyektiv informasiyaları əldə edə və yaya bilirlər. Bu isə təkcə qanunları mənimsəməklə deyil, həm də yüksək informasiya mədəniyyətinə malik olmaqla bağlıdır. İnformasiya mədəniyyəti isə insanın ümumi mədəniyyətinin bir komponentidir.

**P.S.** *Universitet təhsilim boyunca bu sualı tez-tez eşidirdim: – Jurnalist, yoxsa vətəndaş olmaq? Müəllimlərim deyirdi: – Jurnalist olmadan öncə, əsl vətəndaş olmaq lazımdır. Bəli, peşəsindən asılı olmayaraq, öz Vətənini sevən, qoruyan, onun adını hər yerdə uca tutanlar bu ölkənin vətəndaşı adını daşımağa layiq şəxslərdir.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Dövlət Universiteti 2019-cu il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə qəbul elan edir

Fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 dekabr tarixli 737 nömrəli Sərəncamına uyğun olaraq təsdiq edilmiş plana əsasən aparılır. Doktoranturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

**Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qiyabi şöbəyə, büdcə hesabına**

1. Botanika – 1 yer
2. Sami dillər – 1 yer
3. Jurnalistika – 1 yer
4. İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi –1 yer

**Doktoranturaya qiyabi şöbəyə, ödənişli əsaslarla**

1. Müəssisələrin təşkili və idarə olunması – 1 yer

**Doktoranturaya əyani şöbəyə, ödənişli əsaslarla**

1. Ümumi iqtisadiyyat – 1 yer
2. Müəssisələrin təşkili və idarə olunması – 2 yer
3. Beynəlxalq münasibətlər – 1 yer
4. Musiqi sənəti – 2 yer
5. Təsviri sənət – 1 yer
6. Sosial fəlsəfə – 2 yer

**Dissertanturaya büdcə hesabına**

1. Parazitologiya –1 yer
2. Pediatriya –1 yer
3. Kompüter qurğuları və texnologiyası –1 yer
4. Ümumi iqtisadiyyat – 1 yer
5. Müəssisələrin təşkili və idarə olunması – 1 yer
6. Ümumi tarix – 1 yer
7. Vətən tarixi – 1 yer
8. Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi – 1 yer
9. Cinayət hüququ və kriminologiya, cəza-icra hüququ – 1 yer
10. Dil nəzəriyyəsi – 1 yer
11. German dilləri –1 yer
12. Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 2 yer
13. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer
14. Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası – 1 yer

**Dissertanturaya ödənişli əsaslarla**

1. Analiz və funksional analiz –1 yer
2. Ümumi iqtisadiyyat –1 yer
3. Müəssisələrin təşkili və idarə olunması – 1 yer
4. Beynəlxalq hüquq, insan hüquqları – 2 yer
5. Mülki hüquq, sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq – 1 yer
6. Roman dilləri –1 yer
7. Azərbaycan ədəbiyyatı – 1 yer
8. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantlıq yolu ilə 4 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *iş yerindən xasiyyətnamə;*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (15-20 səh.);*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *fakültə elmi şurasından çıxarış;*
- *kafedra elmi şurasından çıxarış.*

Doktoranturaya qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

Dissertantlıq yolu ilə “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildə (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanı verirlər.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı AMEA və nazirliklə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (İELTS, TOEFL, TestDaf, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi AMEA və nazirliklə razılaşdırmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

**Elmlər doktoru proqramı üzrə doktoranturaya qiyabi şöbəyə, büdcə hesabına**

1. Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi – 1 yer

**Elmlər doktoru proqramı üzrə dissertanturaya büdcə hesabına**

1. Vətən tarixi – 1 yer
2. Roman dilləri – 1 yer
3. Dünya ədəbiyyatı – 1 yer
4. Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası – 1 yer
5. Musiqi sənəti – 1 yer

**Dissertanturaya ödənişli əsaslarla**

1. Vətən tarixi – 1 yer

Elmlər doktoru proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və “Fəlsəfə doktoru” (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.

Elmlər doktoru proqramı üzrə doktoranturada əyani təhsil müddəti 4 il, qiyabi 5 il, dissertantlıq yolu ilə 5 ildir.

Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- *Naxçıvan Dövlət Universitetinin rektorunun adına ərizə;*
- *kadrların şəxsi-qeydiyyat vərəqi;*
- *tərcümeyi-hal;*
- *3 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı;*
- *“Fəlsəfə doktoru” və ya “Elmlər namizədi” elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;*
- *ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti;*
- *fakültə elmi şurasından çıxarış;*
- *kafedra elmi şurasından çıxarış.*

***Doktorantura və dissertanturaya sənədlər 25 dekabr 2019-cu il tarixə qədər saat $09^{00}$-dan – $17^{00}$-a kimi Naxçıvan Dövlət Universitetinin əsas binasında Elmi hissədə qəbul edilir. (Şənbə və bazar günləri sənədlər qəbul olunmur).***

### İtmişdir

Naxçıvan şəhəri, 59-cu məhəllə 1 ünvanında Məmmədov Əziz Məmmədvəli oğlunun adına olan 8557 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 853